Yeni Azərbaycan.- 2024.- 4 may, № 78. -S.8.

# Xalçalarda yaşayan tariximiz...

*Yeganə BAYRAMOVA*

Azərbaycanlı ailəsinin evini, məişətini xalçasız təsəvvür etmək qeyri-mümkündür. Çünki xalça bizim üçün hər zaman müqəddəs olub. İlk vaxtlar xalça evlərdə sadəcə bir məişət əşyası kimi istifadə edilirdi. Ancaq sirli və əsrarəngiz naxışları özündə əks etdirən xalçalar sonralar xalqımız tərəfindən təkmilləşdirilərək sənət səviyyəsinə yüksəldilib. Xalqımız gördüyünü, bildiyini, yaşadığı dövrün tarixini xalçalara köçürüb. Reallıq budur ki, dünyanın heç bir ölkəsində xalçaçılığa belə diqqət göstərilmir.

## 5 may "Xalçaçı Günü"dür



Keçmişlə bu günümüz arasında körpü rolunu oynayan, min illərdir öz əhəmiyyətini itirməyən xalçaçılıq sənəti müxtəlif mədəniyyətlərin təsirinə baxmayaraq, xalqımızın həyatında dəyişməz yerini qoruyub saxlayıb. Xalçaçılıq sadəcə mədəniyyət tariximizin deyil, bütövlükdə ölkəmizin tarixinin öyrənilməsi üçün zəngin bir xəzinədir.

Hər il mayın 5-i ölkəmizdə "Xalçaçı Günü" kimi qeyd olunur. Ölkəmizdə yüz illərdir xalça toxunsa da, əvvəllər xalçaçıların heç vaxt öz peşə bayramlarını qeyd etdiyi gün olmamışdı. Lakin artıq səkkiz ildir ki, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradıldığı gün - mayın 5-i "Xalçaçı Günü"dür.

Azərbaycan Milli Xalça Muzeyinin mətbuat katibi Ülvinə Fərzəliyeva "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, ölkəmizdə "Xalçaçı günü" ərəfəsində mayın 3-dən etibarən bir sıra tədbirlə keçirilməyə başlayıb: "Mayın 3-də, saat 17:00-da Azərbaycan Milli Xalça Muzeyində Əməkdar rəssam Taryer Bəşirovun 65 illik yubileyi münasibətilə "Xalçalarda yaşayan tariximiz" adlı fərdi sərginin açılışı baş tutdu. Sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə keçirilir. "Xalçaçı Günü" ərəfəsində keçirilən sərgidə müəllifin ornamental, portret, süjetli xalçaları, xalça eskizləri, eləcə də orijinal tərzdə işlənmiş nəbati və həndəsi naxışlı, süjetli çətənləri nümayiş olunacaq. Sərgi mayın 12-dək davam edəcək".

Ü.Fərzəliyeva qeyd edib ki, milli mədəniyyətimizin inkişafında böyük rolu olan Birinci xanım Mehriban Əliyeva da xalçaçılığın yaşadılmasına öz dəyərli töhfələrini verir: "Xalçaçıların problemlərinin aradan qaldırılmasında, onların fəaliyyət imkanlarının genişləndirilməsində, nailiyyətlərinin beynəlxalq miqyasda təbliğində Mehriban xanımın xidmətləri misilsizdir".

Mətbuat katibinin sözlərinə görə, Prezident Azərbaycanda xalçaçılıq sənətinin ölkə iqtisadiyyatındakı rolunu hər zaman yüksək dəyərləndirib: "Ölkə başçısının diqqət və qayğısı ilə 2016-2020-ci illərdə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin 21 filialı yaradılaraq fəaliyyətə başlayıb. Səhmdar Cəmiyyətin ilk filialı 2016-cı ilin noyabr ayında Füzuli rayonunun Horadiz qəsəbəsində açılıb. 2017-ci ildə Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında xalça istehsalı emalatxanaları yaradılıb. 2018-ci ilin sonunda səhmdar cəmiyyətin daha 10 xalça emalatxanasının-Naxçıvan, Nardaran, Abşeron, Kürdəmir, Goranboy, Tərtər, Şabran, Qobustan, Cəbrayıl, Lənkəran filiallarının tikintisi başa çatdırılaraq istehsala başlanılıb. 2020-ci ildə isə İsmayıllı şəhərində ikinci xalça emalatxanası öz qapılarını toxucuların üzünə açıb. Bu emalatxanaların hər birində 150 nəfər toxucunun, 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün yüksək iş şəraiti yaradılıb, onların rahatlığının təmin olunması üçün nəqliyyat vasitəsi ayrılıb".